

**Dürriyyə Rəhimova**
Rusiyanın xalq artisti



# Sənsiz-səninlə...

*Ömür-gün yoldaşım, əməkdar artist Nəsir Haşım oğlunun xatirəsinə*

Neçə ildir ki, sənsizəm: Aylar, illər keçib gedir, keçib gedəcək də...

Sən yoxsan. Qayıtmayacaqsan. Elə uzaq səfərdəsən ki, ordan dönüş yoxdur. Doğma Xudatında əbədi yuxuya getmisən, barı yuxularıma qayıdaydın...

Mən hər dəqiqə, hər saat gözləyirəm səni, gözləyəcəyəm, əzizim.

Dənizi sevərdin, qoşa gedərdik, bəzi dostlarla, uşaqlarımızla.

Bu gün dənizin yanından keçirdim. Ayaq saxladım, özümdən biixtiyar sahilə gəldim – sənsiz-səninlə...

Bir vaxt sahilə onunla gələrdim. Səssizcə oturub dalğaları seyr edərdik.

...İndisə dalğalar sanki məni tanıyırmış kimi sahilə can atdılar, bir-birini ötə-ötə, hay-küylə... Elə bil məndən səni soruşurlar.

Deyimmi, – əzizim məni tək qoyub getdin, uzağa – gedər-gəlməzə?

Deyimmi – Bezikdin yaşamaqdan?..

Deyimmi – Təkcə sən yoxsan, bir də dostların, qonaq-qaramız, xoşbəxt günlərimiz, aylarımız?

Deyimmi – Çox çalışdım, hər cəfaya dözdüm, saxlaya bilmədim səni.

Çünki özün demişkən:

"Allah qədərimi bu qədərincə verib, qismətdən artıq ömür sürməyin nə mənası?.."

Dalğalar elə bil məni başa düşdülər, bayaqkı haraylarından əsər-əlamət qalmadı...

Kim deyir ki, daşın-torpağın, suyun dili yoxdur? Var, var, – Allah-təalanın yaratdığı bu Yer üzündə hər şeyin dili var. Onlar da sevinir, gülür, ağlayır, qəmə batır, ölüb də dirilirlər...

Mən onlara sənin gözlərinlə baxdım. Sənsiz-Səninlə. Bu dəfə sənsiz dalğalar üçün, dəniz üçün mahnı yox, ağı dedim, oxudum...

Sənsiz heçdir dövranım,
Ay dərdimə dərmanım,
Səndin dinim, imanım
Din, imanım Sənsizəm,
Ay loğmanım, Sənsizəm
Səninləyəm, Sənsizəm,
Sənsizəm ey. Sənsizəm...

◆